# Qeyd

Sualların şərtlərini CMS-dən yükləyə bilərsiniz

- Həlliniz giriş verilənlərini standart girişdən oxumalı və standart çıxışa çap etməlidir.
- Hər tapşırıqda 30 saniyədən bir həll göndərə bilərsiniz. Son 15 dəqiqədə bu məhdudiyyət tətbiq olunmur.
- Hər tapşırığa ən çox 100 həll göndərə bilərsiniz.
- Həlliniz heç bir şəkildə sistem faylları və ya sistemdəki hər hansı interfeys ilə əlaqə yaratmamalıdır (Standart giriş və çıxışdan başqa). "Error stream"-ə hər hansı bir şey çap edə bilərsiniz.
- Məsələlər çətinliyə görə yox, əlifba sırası ilə düzülüb.
- Giriş/çıxış üçün "stream"-lərdən (cin, cout) istifadə edirsinizsə aşağıdakı sətirləri main funksiyanızın əvvəlində yazmağı məsləhət görürük:

```
ios_base::sync_with_stdio(false);
cin.tie(NULL);
```

# Limitlər

| Tapşırıq | Zaman limiti | Yaddaş limiti |
|---|---|---|
| Maya gül almaq istəyir | 1.4 saniyə | 512 MB |
| Kilid | 0.3 saniyə | 128 MB |
| Divar | 0.1 saniyə | 256 MB |

# Qiymətləndirmə

Maya gül almaq istəyir və Kilid tapşırıqlarında alt tapşırıqlar var. Hər hansı bir alt tapşırıq üçün, həmin alt tapşırığın bütün testləri keçdiyi halda bal alırsınız. Bu tapşırıq üçün yekun balınız göndərdiyiniz bütün həllərdə hər alt tapşırıqdan aldığınız maksimum balların cəminə bərabər olacaq.

Divar sualında hər bir test ayrıca qiymətləndirilir. Bu tapşırıqlarda yekun balınız olaraq ən çox bal verən həllinizin balı götürüləcək.